**UOT 930.1**

# TARİXİ İDRAKDA OBYEKT, PREDMET VƏ SUBYEKT ANLAYIŞLARI: FƏLSƏFİ TƏHLİL

**Rövşən Hacıyev**
fəl.ü.f.d., dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
vinodelrovshan1@rambler.ru
DOİ: 10.30546/sw.2022.2.39.91

**Xülasə.** Məqalədə tarix elminin mühüm metodoloji problemləri – tarixi idrakda obyekt, predmet və subyekt məsələləri nəzərdən keçirilir. Göstərilir ki, tarixin həm obyektinin, həm də predmetinin müəyyən edilməsində müxtəlif yanaşmalar mövcuddur. Bəzən bu yanaşmalar bir-birinə zidd olan mövqelərdən irəli gəlir. Məqalədə tarixin predmetinin müəllif tərəfindən müəyyən edilməsinə cəhd göstərilir. Eyni zamanda tarixi idrakda obyekt və subyekt məsələləri nəzərdən keçirilir. Göstərilir ki, humanitar elmlərdə bu problemin çözümü təbiətşünaslıq elmlərindən keyfiyyətcə fərqlənir.

**Məqsəd**: Tarixi idrakın aparıcı kateqoriyaları olan obyekt, predmet və subyekt anlayışlarının metodoloji əhəmiyyətinin araşdırılması.

**Metodologiya**: Məqalədə analiz, sintez və müqayisə metodlarından istifadə edilmişdir.

**Elmi yenilik**: Tarix elminin aparıcı kateqoriyası olan tarixi idrakın predmeti anlayışının daha bir tərifi verilmişdir.

**Açar sözlər**: tarixi idrak, tarixi idrakın obyekti, tarixi idrakın predmeti, tarixi idrakın subyekti, tarix, sosiologiya

## Giriş

İctimai və humanitar elm sahələrində tədqiqatın obyekt və predmetinin müəyyənləşdirilməsi məsələsi metodoloji baxımdan həmişə mühüm əhəmiyyət daşımışdır. Araşdırmalarımız göstərir ki, xüsusən tarix elmində tarixi idrakın obyektinin və predmetinin müəyyənləşdirilməsində müəyyən çətinliklər özünü büruzə verməkdədir. Digər tərəfdən, tarixi idrakın özünəməxsusluğu ondan irəli gəlir ki, burada tədqiqatçı subyekt kimi çıxış etməklə yanaşı, özünü həm də obyekt olaraq nəzərdən keçirir. Bu xüsusiyyət tədqiqat işinin obyektivliyini müəyyən dərəcədə çətinləşdirmiş olur. Çətinliyi yaradan səbəblərdən biri də müəyyən kontekstlərdə (məsələn, cəmiyyətin inkişafına dair araşdırmalarda) tarix elmi ilə sosiologiyanın predmetinin çox hallarda yaxın olması ilə bağlıdır. Məqalənin yazılmasında başlıca məqsəd yuxarıda qaldırılan məsələlərə mümkün olduqca aydınlıq gətirilməsindən ibarətdir.

Tarixi idrakda obyekt və predmet məsələləri ilə bağlı axtarışlarımız bir həqiqəti ortaya çıxarır – bu problemlərin həlli ilə bağlı mütəxəssislər arasında bu günə kimi bütün tərəfləri qane edə biləcək ortaq mövqe və ya fikir yoxdur. Həm Qərbdə, həm də postsovet məkanında bu məsələlərin həlli bir-birindən fərqli yanaşmalarla səciyyələnir. Dediyimizə misal kimi müasir rusiyalı tədqiqatçı Q.M.İppolitovun bu məsələnin həllinə dair bir məqaləsinə diqqət yetirmək olar. Həmin məqalədə İppolitovun fikirlərindən aydınlaşır ki, o, əvvəllər tarixi idrakda obyekt və predmetin müəyyən edilməsi və differensiasiyası ilə əlaqədar heç bir problemin olmaması qənaətində idi. Lakin sonralar aspirantlarla fəaliyyəti zamanı, eləcə də tarixi idrakın bu məsələlərinə həsr olunmuş tədqiqatların təhlili prosesində obyekt və predmetin fərqləndirilməsi ilə bağlı mütəxəssislər arasında xeyli fikir ayrılığının olmasını aşkar etmişdir [5, s.281-282]. Ona görə də, əvvəlcə tarixi idrakın obyekti və predmeti ilə əlaqədar elmin bu sahəsi üzrə tanınmış mütəxəssislərin fikirlərinə diqqət yetirilməsi zərurəti yaranır.

Şübhəsiz ki, müasir dövrdə tarixi idrakın obyekti və predmeti ilə məşğul olmuş mütəxəssislər sırasında Fransa “Annallar” məktəbinin nümayəndələri mühüm yer tutur. Bununla yanaşı, onların tarixi idrakın obyekti və predmeti ilə bağlı baxışlarında fərqli yanaşmaları da müşahidə etmək mümkündür. Məsələn, tanınmış tarixçi M.Blok, tarixi, “insan haqqında elm” kimi müəyyən etmişdir. Onun fikrincə,

tarixin predmeti müəyyən məkan və zamanda fəaliyyət göstərən insandır [1, s.29]. Əsərinin digər bir yerində Blok belə bir fikir də söyləmişdir ki, tarixin predmeti insanın şüuru vasitəsilə müəyyən olunur [1, s.83]. Ümumən, Qərb mütəxəssislərinin baxışlarında tarixin obyektinin və predmetinin müəyyən edilməsində əsas amil olaraq insanın daxili aləmi, onun psixoloji halı əsas götürülmüşdür. Deyilən məsələ ilə bağlı hələ XIX əsrin sonlarında tanınmış alman tarixçisi K.Lamprext belə bir fikir söyləmişdir ki, “psixologiya bütün tarix elminin əsasını təşkil edir” [12, s.77]. “Annalar” məktəbinin dəgər tanınmış nümayəndəsi F.Brodel isə bildirmişdir ki, “mənim üçün tarix bütün mümkün tarixlərin, yanaşmaların və baxışların cəmidir – həm keçmişin, həm bu günün, həm də gələcəyin” [2, s.128].

Görkəmli sovet alimi, tarix elminin tanınmış metodoloqu akademik İ.D.Kovalçenko Brodelin bu cür yanaşmasını haqlı olaraq tənqid etmişdir. Kovalçenkoya görə, tarixin predmetinin bu dərəcədə geniş nəzərdən keçirilməsi qüsurlu yanaşmadır, çünki heç bir tarixçi heç zaman tarixin istənilən hadisəsi ilə məşğul olmamış və yalnız ictimai əhəmiyyət daşıyan hadisələri öz tədqiqat predmetinə çevirmişdir [6, s.47]. Tanınmış sovet metodoloqu Y.V.Petrov isə hesab etmişdir ki, tarixin obyekti insan dünyasıdır. Bu zaman obyekt deyildikdə heç də bütün reallıq deyil, yalnız onun müəyyən bir hissəsi – insanın diqqətini cəlb edən, onun tərəfindən qavranılan tarixi gerçəklik başa düşülmüşdür [9, s.231]. Digər rusiyalı mütəxəssis A.V. Qulıqa tarixi, “insanlıq tarixinin keçmişini öyrənən elm” kimi müəyyən etmişdir [3, s.4]. Tarix elminin daha bir metodoloqu V.A.Dyakov isə tarix elminin obyektini aşağıdakı kimi müəyyən etmişdir: “Tarix elmi cəmiyyətin sosio-iqtisadi, ictimai-siyasi və mədəni həyatını onların bütün mümkün təzahürlərində və aspektlərində tədqiq edir” [4, s.7]. Bu təriflərə diqqətlə yanaşıldığı zaman görmək mümkündür ki, onların hər birində müəyyən çatızmazlıqlar vardır. Məsələn, Y.V.Petrovun tərifində tarixi idrakın obyekti ilə predmetini bir-birindən ayırmaq mümkün olmur. A.V.Qulıqanın və V.A.Dyakovun tərifində isə tarixi idrakın obyekti həddən artıq geniş və yayğın götürülmüşdür. Aydındır ki, tarix elmində insan cəmiyyətini onun bütün təfərrüatları və aspektləri ilə tədqiq etmək imkan xaricindədir və buna yəqin ki, heç ehtiyac da yoxdur. Digər tərəfdən, verilən təriflərdən göründüyü kimi, tarixi idrakın obyekt və predmetinin bir-birindən dəqiq fərqləndirilməsi problem olaraq qalmaqdadır. Bu məsələlərin real həlli üçün akademik Kovalçenkonun mühüm metodoloji əhəmiyyət daşıyan tədqiqat əsərinə diqqət yetirilməsini məqsədəuyğun hesab etdik, çünki zənnimizcə, məhz onun şərhlərində bu kimi məsələlər daha dərin şəkildə təhlil olunmuşdur.

İ.D.Kovalçenko öz monoqrafiyasında tarix elminin metodoloji məsələlərinə keçməzdən öncə, ümumən, idrak prosesinin obyektinin və predmetinin müəyyən edilməsinə səy göstərir. Kovalçenkonun fikrincə, “idrakın obyekti – reallığın müəyyən təzahür və proseslərinin keyfiyyətcə elə bir toplusudur ki, öz daxili təbiətinə görə, əsas xüsusiyyətləri və inkişaf qanunlarına görə bu reallığın digər obyektlərindən mahiyyətcə fərqlənir” [6, s.42]. Bu tərifdən, ilk növbədə, onu müəyyən etmək olar ki, Kovalçenko idrakın obyekti dedikdə öz daxili təbiəti və xüsusiyyətlərinə görə reallığın digər obyektlərindən keyfiyyətcə fərqlənən müəyyən tərəfini başa düşür. Qeyd olunmalıdır ki, bu tərifdə idrakın obyekti məhz ətraf aləmdir, real gerçəklikdir. Bu yanaşma, şübhəsiz ki, elmə materialist baxışın prinsiplərinə müvafiq gəlir. Bu da başa düşüləndir, çünki Kovalçenko öz baxışlarına görə materialist alimdir. Həmin əsərində fikirlərini davam etdirən Kovalçenko daha sonra bildirir ki, praktiki olaraq idraki proses reallığın yalnız müəyyən bir hissəsini əhatə etdiyi üçün idrak obyektinin məzmununun məhz bu tərəfini ifadə edən anlayışa ehtiyac yaranır. Bu anlayış isə, idrakın predmetidir [6, 43]. Bunun ardınca Kovalçenko fikirlərini daha da dəqiqləşdirməyə çalışır: “Bundan sonra idrakın obyekti kimi müəyyən obyektiv reallığı, predmeti kimi isə bu obyektin tədqiqata cəlb edilən aspektlərini və xüsusiyyətlərini başa düşəcəyik” [6, s.43].

Buradan göründüyü kimi, bir çox mütəxəssislərdən fərqli olaraq akademik Kovalçenko idrakın obyektinin və predmetinin bir-birindən aydın şəkildə fərqləndirilməsini həyata keçirə bilmişdir. Lakin tədqiqatçı Mininkovun da qeyd etdiyi kimi [bax: 7], Kovalçenkonun verdiyi bu təriflərin bir qüsuru vardır. Məsələ burasındadır ki, tədqiqat prosesinin aparılması baxımından idrakın obyekti statik vəziyyətdə olduğu halda, onun predmeti həmişə dinamikliyi ilə səciyyələnir. Bu da başa düşüləndir, çünki hər bir halda idrak prosesində tədqiq edilən bütün obyekt deyildir, məhz onun bir hissəsi olan predmetdir. Apardığı ümumi metodoloji hazırlıq işlərindən sonra Kovalçenko tarix elminin obyektini aşağıdakı kimi müəyyən edir: “Tarix elminin idrak obyekti – cəmiyyətin tarixi boyu təzahür edən ictimai həyatın bütün mümkün hadisələridir” [6, s.44]. Kovalçenko hesab edir ki, tarix elmi digər

ictimai-humanitar elmlərlə müqayisədə daha kompleksli, bir növ inteqrativ elm kimi çıxış edir. Fikirlərini davam etdirən Kovalçenko belə izah edir ki, tarixçi tədqiq etdiyi dövrü tam şəkildə əks etdirmək üçün tarixi hadisələrə diqqət yetirməklə yanaşı, həmin dövrün iqtisadiyyatı, mədəniyyəti və digər ictimai sahələrini də öyrənməlidir. Lakin aydındır ki, tədqiqatçı ictimai hadisələrin hamısını bir dəfəyə və ya tam, dolğun şəkildə əhatə edə bilməz. Məhz buna görə tarixçi tədqiq etdiyi dövrün yalnız konkret hadisələrini öyrənməyə səy göstərir. Ona görə də idrak prosesində obyektlə yanaşı, onun predmetinə diqqət göstərilir. Kovalçenko idrakın predmetini aşağıdakı kimi müəyyən edir: “İdrakın predmeti – tədqiqata cəlb edilən idrak obyektinin ən əhəmiyyətli xassə və əlamətlərinin müəyyən bir toplusudur” [6, s.44]. Daha sonra Kovalçenko məhz tarixi idrakın predmetinin müəyyənləşdirilməsi işinə səy göstərir. Onun geniş və dolğun təhlillərindən aydın olur ki, bu məqsədə çatmaq üçün, ilk növbədə, tarix elminin digər humanitar elmlərdən fərqli xüsusiyyətlərini ayırd etmək, xüsusən cəmiyyəti öyrənən sosiologiya elmindən nə ilə fərqləndiyini üzə çıxarmaq gərəkdir. Apardığı geniş müqayisəli təhlillərin sonunda Kovalçenko tarixi idrakın aşağıdakı tərifini verməyə müvəffəq olur: “Tarix elminin idrakı predmetini bütün mümkün formalarında, məkan-zaman konkretliyində təbii-tarixi, irəliləyən-tərəqqiedici, daxilindən şərtlənən və qanunauyğun proses kimi çıxış edən insan fəaliyyətinin ifadəsi təşkil edir” [6, s.55]. Verdiyi tərifində Kovalçenko tarixin predmetinin doğru təyin edilməsində, onun, məsələn, sosiologiyanın predmetindən fərqləndirilməsi işində anlayışın əhəmiyyətli əlaməti kimi çıxış edən məhz məkan-zaman konkretliyi amilinə xüsusi önəm verir.

Doğrudan da, Kovalçenkonun tədqiqatından ayırd etmək mümkündür ki, ümumən idrak prosesinin predmetini müəyyənləşdirmək, yəni onun tərifini vermək, konkret olaraq, tarixi idrakın predmetinin məzmununu aydın şəkildə müəyyənləşdirmək anlamına gəlmir. Məsələ burasındadır ki, cəmiyyəti öyrənən ictimai-humanitar elm sahələri az deyildir. Bunlardan biri də sosiologiyadır. Məlumdur ki, sosiologiya cəmiyyəti onun bütün tərəflərinin inteqrativ cəmi kimi, vahid bir sistem kimi öyrənən humanitar elm sahəsidir. Lakin tarix elminin bir çox metodoloqlarının da bu məsələyə eyni yanaşmaları vardır. Onlardan tanınmış mütəxəssis N.İ.Smolenskinin fikirlərinə diqqət yetirmək kifayət edir: “Tarix elmi cəmiyyəti vahid olaraq öyrənir və bu mənada o cəmiyyət haqqında bütün elmlərin əsası kimi öz əhəmiyyətini saxlayır” [10, s.19]. Bu baxımdan tarixlə sosiologiyanın predmetini ayırd etmək mütəxəssislər üçün xeyli çətinliklər yaradır. Digər tərəfdən, yuxarıda verilən təriflərdən göründüyü kimi, tarix elminin obyeki olaraq həm də ictimai fəaliyyətdə olan insan götürülür. İnsanı öyrənən elmlərin də sayı az deyildir. Məsələn, psixologiya elmi bu baxımdan diqqət doğurur. Məsələ burasındadır ki, Qərb elmində tarixin obyektini müəyyənləşdirən amil kimi insan psixologiyasının götürülməsi daima geniş yayılmış bir yanaşma olmuşdur (bu barədə yuxarıda verdiyimiz Lamprextin tərifini bir daha yada sala bilərik). Buna misal olaraq görkəmli Amerika tarixçisi P.Levenberqin bir ifadəsinə diqqət yetirmək istərdik. İnsanın əksər hallarda irrasionalist istəklərdən irəli gəldiyini qeyd edən və tarixi insanın fəaliyyətinin məhsulu kimi dəyərləndirən mütəxəssis, bu fikirlərdən irəli gələrək bildirmişdir ki, tarix də mahiyyəti baxımından irrasionaldır [8, s.19]. Bütün deyilənlər onu göstərir ki, tarix elminin həm obyektini, həm də predmetini aydın şəkildə, bütün tərəfləri qane edəcək bir formada müəyyən etmək elə də asan məsələ deyildir.

Haqqında danışdığımız çətinlikləri və yuxarıdakı tanınmış mütəxəssislərin fikirlərini nəzərə alaraq, tarixi idrakın obyekt və predmetinin müəyyənləşdirilməsi işinə biz də öz töhfəmizi vermək istərdik. Həm Qərb alimlərinin, həm də sovet və ümumən postsovet məkanı alimlərinin tarixi idrakın predmetinin müəyyənləşdirilməsi ilə bağlı fikirlərini, verdikləri təriflərin məzmununu təhlil edərkən, bütün mütəxəssislərin məhz insan amilinə diqqət yetirməsi gerçəkliyinin şahidi oluruq. Lakin heç bir insan fərdi qaydada tarix yazmır, o həmişə digər insanlarla təmasda, onlarla kommunikativ əlaqələrdə, yəni sosial mühitdə öz arzu və istəklərini reallaşdırmağa çalışır. Bu baxımdan, tarixin predmetinin insanın fəaliyyəti əsasında təyin edilməsi cəhdlərini qüsurlu yanaşma kimi dəyərləndiririk. Zənnimizcə, ictimai həyatın gedişində insanların fəaliyyətində hansısa qanunauyğunluqlar axtarılması da tarixin predmetinin müəyyən edilməsi baxımından yararlı yanaşma sayıla bilməz. Ona görə ki, istənilən cəmiyyətin tarixi məhz insanların maraq və məqsədlərinin həyata keçirilməsi uğrunda onların qarşılıqlı və birgə fəaliyyətinin məhsulu kimi ortaya çıxır. Başqa sözlə, istənilən konkret bir cəmiyyətin tarixində subyektiv amillər başlıca rol oynayırlar. Ümumbəşər tarixi də, əslində, konkret cəmiyyətlərin tarixinin cəmindən başqa bir şey deyildir. Hesab edirik ki, qanunauyğunluqların üzə çıxarılması daha çox

makrososiologiyanın predmetinə daxil olan bir məsələdir. Belə ki, məhz cəmiyyətlərin ümumi inkişafı prosesində hansısa obyektiv qanunauyğunluqların (yəni burada, əsasən, subyektiv amillərdən asılı olmayaraq özünü büruzə verən ictimai proseslər nəzərdə tutulur) üzə çıxarılması daha məntiqli və real görsənir. Belə ki, ayrı-ayrı sosial sistemlərin inkişafında ümumi olanı, hər birində təkrar olunan eyni hadisələri üzə çıxarmaqla, ümumilikdə, cəmiyyətin inkişaf qanunauyğunluqlarını da ortaya çıxarmaq mümkün olur. Bu işi isə məhz makrososiologiya və ya sosial fəlsəfə həyata keçirir. Bütün yuxarıda deyilən fikirlərdən irəli gələrək, tarixi idrakın predmetini aşağıdakı qaydada ifadə etmək mümkündür. **Tarixi idrakın predmetini** müəyyən zaman-məkan çərçivələrində yaşayan insanların məqsədlərinin reallaşdırılması yolunda ictimai əhəmiyyət daşıyan və onların kommunikativ fəaliyyətlərinin nəticəsi kimi ortaya çıxan hadisələrin öyrənilməsi işi təşkil edir. Yaddan çıxarmaq olmaz ki, tarix insanların kommunikativ və birgə fəaliyyətlərinin nəticəsi kimi ortaya çıxır. Məhz bu səbəbdən tanınmış şəxsiyyətlərin həyat yolunu tarix deyil, məhz tərcümeyi-hal və ya beynəlxalq dildə avtobioqrafiya adlandırırlar. Belə demək mümkünsə, tarix bilavasitə ayrı-ayrı şəxslərlə deyil, konkret sosiumla və ya cəmiyyətlə bağlıdır.

Tarixin obyektini və predmetini müəyyən etməyə çalışan mütəxəssislər bu kontekstdə vacib bir məsələyə də diqqət yönəltməyi metodoloji baxımdan əhəmiyyətli hesab edirlər. Məsələ burasındadır ki, tarixi idrakın obyekti və predmeti zamandan asılı olaraq fərqli məzmun kəsb edirlər, yəni onlar özləri də tarixidirlər [5, s.296]. Əgər biz Antik dövrdən indiyə qədər tarix elmi ilə məşğul olan tarixçilərin əsərlərini yada salsaq, asanlıqla aşkar edə bilərik ki, onların obyekt və predmetlə bağlı baxışları fərqli olmuşdur. Məsələn, Orta əsrlərin tarixçilərinə görə tarixin obyektini Allah, predmetini isə onun yaratdığı insanların əməlləri və gördüyü işlər təşkil etmişdir.

Tarixi idrakın obyekt və predmetinin müəyyənləşdirilməsi işi ilə yanaşı, obyekt-subyekt münasibətlərinin araşdırılması məsələsi də mühüm metodoloji əhəmiyyət daşıyır. Metodoloji baxımdan tarixi idrakın digər humanitar elmlərlə bərabər onlar üçün ortaq olan bir məsələsi vardır ki, bu da həmin sahələrdə obyektlə subyekt arasındakı əlaqə ilə bağlıdır. Humanitar elm sahələrində mövcud olan bu özünəməxsus əlaqə təbiətşünaslıq elmlərindəki obyekt-subyekt münasibətlərindən keyfiyyətcə fərqlənir. Təbiətşünaslıq elmlərində obyekt və subyekt tamamilə fərqli dünyalara aiddirlər və burada subyekt rolunda çıxış edən insan anlamaq, başa düşmək istədiyi təbiəti, yəni obyekti bir növ kənardan müşahidə və tədqiq edir. Bu baxımdan humanitar elm sahələrində tamamilə başqa bir mənzərənin şahidi oluruq. Burada obyekt və subyekt münasibətləri eyni bir dünyaya daxildir – hər ikisində söhbət insanların fəaliyyətindən gedir və buna görə də humanitar elm sahələrində bir növ idrakın özünüdərki aktı həyata keçirilir. Digər tərəfdən, tarixi idrakın obyekti və predmeti daima keçmişlə bağlı olduğu halda, təbiətşünaslıq elminin obyekti həmişə indiki və ya gələcək zamandadır. Təbiətşünaslıq elmlərində subyekt həmişə tədqiq etdiyi obyektin bir növ fövqündədir. Tarixi idrakda obyekt də, subyekt də zamanda dəyişəndir, hər ikisi tarixə aiddir. Ona görə tarixi idrakda bir növ cəmiyyətin özü-özünü dərk etməsi halı yaşanır. Bu baxımdam subyekt, təbiətşünaslıq elmlərindən fərqli olaraq, tədqiq etdiyi obyektə biganə qala bilmir. Subyektin obyektivliyi ciddi çətinliklər qarşısında qalır. Bu da başa düşüləndir, çünki istənilən tədqiqatçı müəyyən dəyərlərə sahibdir [11, s.6], yaşadığı dövrün ictimai-siyasi, sosial-mədəni hadisələrin təsiri altındadır. Bu baxımdan onun tədqiq etdiyi obyektə bitərəf qalması xeyli problematikdir. Belə demək mümkünsə, tarixi idrakın subyekti bir növ öz dövrünün əsirinə çevrilmiş vəziyyətdədir [5, s.289]. Doğrudan da, tarixi idrakın obyekti müəyyən bir cəmiyyət və ya sosial qrup kimi müəyyən dəyərlər zəminində formalaşaraq, eyni zamanda təbiətşünaslığın obyektindən fərqli olaraq özünəməxsus mentalitetdən, ümumən, ictimai psixologiyadan çıxış etməklə öz rasional şüurundan az olmayacaq dərəcədə tarixi prosesin gedişinə təsir göstərmək iqtidarındadır. Düzdür, zaman keçdikcə tarix prosesin gedişinə təsir göstərən insanların ehtirasları və emosiyaları, sosial-siyasi motivləri və maraqları yaddan çıxarıla bilir, lakin subyekt tərəfindən tarixi materialların tədqiqi keçmişdə qalmış bu daxili halətləri yenidən canlandıra bilir, onları bir daha geri qaytarmış olur. Subyekt tədqiq etdiyi hadisələrlə tanış olduqca, bir növ o hadisələrin iştirakçısına çevrilir və o dövrün emosiyalarını bir daha yaşamış olur. Bu zaman keçmişdə baş vermiş hadisələrlə yaşadığı dövrün prosesləri arasında müəyyən analogiya yarada bilir və bu zaman müşahidəçidən iştirakçıya çevrilərək, tədqiqatın obyektivliyinə xələl gətirəcək bir vəziyyətə, halətə düşür. Aydındır ki, təbiətşünaslıq elmində subyektin belə bir vəziyyətə düşməsi sadəcə mümkün deyildir.

Tarixi idrakda obyekt-subyekt münasibətlərində ortaya çıxan bütün bu özünəməxsus çətinlikləri nəzərə almaqla, yuxarıda deyilən fikirlərdən aşağıdakı nəticələrə gəlmək mümkündür:

1. Tarixi idrakın obyekti – subyektin, yəni tarixçinin azad seçiminin nəticəsi kimi müəyyən olunur.

2. Tarixi tədqiqatın predmetinin seçilməsi subyektin istəyindən əlavə, onun yaşadığı dövrün sosial çağırışlarından asılı olaraq müəyyən olunur. Aydındır ki, istənilən subyekt tədqiqat predmetini seçərkən, zamanın çağırışlarını da nəzərə almağa çalışır. Eyni zamanda, subyekt müəyyən mənada dövrünün mədəni dəyərlərindən, dünyagörüşündən irəli gəlir və sosial-siyasi tələblərinin təsiri altında olur.

3. Hətta tarixi idrakın predmeti eyni olduqda belə, tarixşünaslığın dövründən asılı olaraq onun dərkinə yanaşma bir-birindən fərqlənir. Məsələn, Rusiya tarixində I Pyotrdan etibarən rus xalqının uzun əsrlər monqol-tatar zülmündə olmasından bəhs edilmişdir. Halbuki Sovet İttifaqının dağılmasından sonra rusiyalı tarixçilərin əksəriyyəti artıq “monqol-tatar zülmü” kimi təqdim edilən bir hadisənin olmadığını sübut edə bilmiş, müvafiq olaraq bu ifadədən imtina etməyə başlamış və həmin anlayışın tarix dərsliklərindən çıxarılmasına da nail olmuşlar. Göründüyü kimi, tarixin predmeti kimi götürülən “monqol-tatar zülmü” anlayışı yaşanan dövrün sosial-siyasi tələblərindən asılı olaraq fərqli dövrlərdə fərqli, hətta bir-birinə əks olan mövqelərdən dəyərləndirilmişdir.

Beləliklə, tarixi idrakın obyekti və predmeti təsadüfən ortaya çıxmır. Onun müəyyənləşdirilməsi birbaşa subyektin, yəni tədqiqatçının şüurlu seçimindən və dolayısı ilə subyektin yaşadığı tarixi dövrün sosil-siyasi və mədəni şəraitindən asılı olur. Obyektin dərk edilməsində subyektin mənsub olduğu dövrün və cəmiyyətin maraqları və çağırışları müəyyən rol oynayır. Fəlsəfi dildə ifadə etsək, obyektlə subyektin qarşılıqlı əlaqəsi dialektik səciyyə daşıyır.

**Nəticə**

1. Tarixi idrakın obyekti və predmeti subyektin, yəni tarixçinin azad seçiminin nəticəsi kimi müəyyən olunur. Bu zaman obyektlə subyektin qarşılıqlı əlaqəsi dialektik səciyyə daşıyır.

2. Tarixi tədqiqatın obyektinin və predmetinin seçilməsi subyektin istəyindən əlavə, onun yaşadığı dövrün sosial çağırışlarından asılı olur.

3. Tarixi idrakın obyekti eyni olduqda belə, tarixşünaslığın dövründən və tarixçinin dünyagörüşündən asılı olaraq onun dərkinə yanaşma bir-birindən fərqlənir.

**İstifadə olunmuş ədəbiyyat**


1. Блок М. Апология истории, или Ремесло историка. М.: «Наука», 1973. 236с.

2. Бродель Ф. История и общественные науки. Историческая длительность // Философия и методология истории. Сборник статей, М.: «Прогресс», 1977, 336с.

3. Гулыга А.В. Эстетика истории. М.: «Наука», 1974, 129с.

4. Дьяков В.А. Методология истории в прошлом и настоящем. М.: Мысль, 1974, 190с.

5. Ипполитов Г.М. Объект, предмет, субъект исторического познания: непростая диалектика // Известия Самарского научного центра Российской академии наук. Т.9, № 2, 2007.

6. Ковальченко И.Д. Методы исторического исследования, М.: “Наука”, 1987, 440с.

7. Мининков Н.А. Объект, предмет и субъект исторического познания // https://studfile.net/preview/9745642/ müraciət tarixi: 15.05.2022.

8. Могильницкий Б.Г. Введение в методологию истории (учебное пособие), М.: «Высшая школа», 1989, 175с.

9. Петров Ю.В. Методологические проблемы исторического познания, Томск: “Изд-во Томск. Университета», 1981, 421с.

10. Смоленский Н.И. Теория и методология истории (учебное пособие), М.: «Академия», 2008, 272с.

11. Щербаков Д.А. Роль ценностей в историческом познании, Оренбург: «Университет», 2013, 301с.

12. Lamprecht K, Was ist Kulturgeschichte? Beitrag zu einer empirischen Historik, in: Deutsche Zeitschrift für. Geschichtswissenschaft, N.F. 1896-97.

# ПОНЯТИЯ ОБЪЕКТА, ПРЕДМЕТА И СУБЪЕКТА ИСТОРИЧЕСКОГО ПОЗНАНИЯ: ФИЛОСОФСКИЙ АНАЛИЗ

**Ровшан Гаджиев**

**Резюме.** В статье рассматриваются такие важные проблемы исторической науки, как объект, предмет и субъект исторического познания, показывая разные подходы по определению объекта и предмета исторического познания, отмечая, что подчас эти подходы диаметрально противоположны друг другу. Также, в статье предпринимается попытка сформулировать авторское понимание предмета исторической науки, рассматривается вопрос соотношения объекта и субъекта исторического познания и показывается, как в гуманитарных науках решение этого вопроса качественно отличается от решения вопроса в естественных науках.

**Цель:** исследование методологического значения понятий объекта, предмета и субъекта, являющихся ведущими категориями исторического познания.

**Методология:** в статье применены такие методы как анализ, синтез и сравнение.

**Научная новизна**: дано еще одно определение понятию «предмет исторического познания».

**Ключевые слова**: историческое познание, объект исторического познания, предмет исторического познания, субъект исторического познания, история, социология

# CONCEPTS OF OBJECT, THEME AND SUBJECT OF HISTORICAL KNOWLEDGE: PHILOSOPHICAL ANALYSIS

**Rovshan Hajiyev**

**Abstract.** The article deals with such important problems of historical science as the object, theme and subject of historical knowledge. It is shown that in historical science there are different approaches to the definition of the object and theme of historical knowledge. Studies show that sometimes these approaches are opposed to each other. The article attempts to formulate the author's understanding of the theme of historical science. At the same time, the question of the relationship between the object and the subject of historical knowledge is considered. It is shown that in the humanities the solution of this issue is qualitatively different from the natural sciences.

**Purpose of the research** – study of the methodological significance of the concepts of object, theme and subject, which are the leading categories of historical knowledge;

**Methodology** – the article uses such methods as analysis, synthesis and comparison

**Scientific novelty** – one more definition is given to the concept “theme of historical knowledge”

**Keywords**: historical knowledge, object of historical knowledge, theme of historical knowledge, subject of historical knowledge, history, socioloji